# *Emin HÜSEYNOV:* "Baş Qərvənd kəndindəki "Ağıllı kənd" layihəsi Azərbaycanın vəsaiti hesabına həyata keçiriləcək"

## İlin sonunadək Füzuliyə 846 ailənin köçürülməsi planlaşdırılır



"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq 2026-cı ilin sonuna qədər 34 min 600 ailənin köçürülməsi nəzərdə tutulur. Bu istiqamətdə bərpa ediləcək şəhər, kənd və qəsəbələrin konkret siyahısı təsbit olunub. Bu layihə çərçivəsində ən önəmli komponentlərdən biri də "ağıllı kənd" və "ağıllı şəhər"lərin tikintisidir. Artıq məlumdur ki, ilk belə kənd Zəngilan rayonunun Ağalı kəndində salınıb sakinlərin istifadəsinə verilib və artıq orada ailələr yaşayırlar. Növbəti belə bir kənd isə Azərbaycan dövlətinin öz maliyyəsi hesabına Füzuli rayonunun Dövlətyarlı kəndində tikiləcək.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov söyləyib.

Onun sözlərinə görə, Dövlətyarlı kəndində artıq layihələndirilmə işləri yekunlaşmaq mərhələsindədir. Kənddə bir ay ərzində torpaq işlərinə başlanılacaq. Dövlət satınalmaları proseduru isə artıq işə başlayıb.

"Bu istiqamətdə üçüncü belə bir layihə Ağdam rayonunun Baş Qərvənd kəndində reallaşacaq. Digər əvvəlki layihələrdən fərqli olaraq Baş Qərvənd kəndinin Slovakiya Respublikasının mütəxəssisləri tərəfindən layihələndirilərək "ağıllı kənd" kimi bərpa olunması nəzərdə tutulur. Sözsüz ki, bu layihə də Azərbaycan dövlətinin vəsaiti hesabına həyata keçiriləcək. Amma burada tətbiq ediləcək "ağıllı" həllər məhz Slovakiyanın mütəxəssisləri və mühəndisləri tərəfindən böyük effektivliklə bütün dünyada infrastruktur sahəsində tətbiq olunur. Hesab edirik ki, bu da bərpa prosesində baş verən yeniliklərdən biridir. Qeyd edim ki, layihə çərçivəsində ümumilikdə ərazisi 476 hektar olan bir kəndin tamamilə yenidən qurularaq "ağıllı kənd" kimi bərpası nəzərdə tutulur. Kəndə birinci mərhələdə 5500, ikinci mərhələdə isə 1170 nəfərin köçürməsi planlaşdırılır. Kəndə əvvəlcə 915, növbəti mərhələdə isə 622 ailə köçürüləcək", - deyə E.Hüseynov vurğulayıb. O əlavə edib ki, layihəni önəmli edən digər bir məqam isə Baş Qərvənd kəndinin keçmiş təmas xətti dediyimiz ərazidə yerləşməsidir. Kənd həddindən artıq mina ilə çirklənmiş bir ərazidədir. Ümid edirik ki, Baş Qərvənd kəndində layihə tez bir zamanda yekunlaşacaq.

❖ ❖ ❖

İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri ilə bağlı əməkdaşlıq üçün müxtəlif ölkələrdən mütəmadi şəkildə təkliflər gəlir. Təkcə dövlət səviyyəsində deyil, hətta ayrı-ayrı ölkələri təmsil edən şirkətlərdən müxtəlif "ağıllı həllər"lə bağlı təkliflər daxil olmaqdadır. Sözsüz ki, bütün təkliflər müvafiq qaydada nəzərdən keçirilir. Əgər iqtisadi, ekoloji və enerji səmərəliliyi təmin olunarsa, layihələr icra oluna bilər. Bu sözləri müsahibəsində Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov söyləyib.

O bildirib ki, artıq Böyük Qayıdış mərhələli şəkildə həyata keçirilir. Bunların içərisində Laçın şəhəri, Zabux kəndi və Füzuli şəhərini xüsusilə qeyd edə bilərik. Bu proses həmin yaşayış məntəqələrində tam yekunlaşmadığı üçün ailələrin köçürülməsi bundan sonra da davam edəcək.

"Füzulidə hazırda 70 ailə yaşayır. Sentyabrın 7-si, 11-i və 15-i daha 74 ailənin Füzuli şəhərinə köçürülməsi planlaşdırılır. Beləliklə, Füzulidə yaşayan ailələrin sayı 144-ə çatacaq. Sentyabrın sonuna qədər 260, ilin sonunadək isə mərhələli şəkildə 846 ailənin Füzuliyə köçürülməsi planlaşdırılır", - deyə Prezidentin xüsusi nümayəndəsi əlavə edib.

Azərbaycan. - 2023.- 7 sentyabr.- S.4.